# HƏYAT BİLGİSİ

1

Dərslik



LAYİHƏ

 

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

Elşad Yunusov
Yalçın İslamzadə
Gülər Mehdiyeva
Elmar İmanov
Elmina Kazımzadə
Famil Ələkbərov

# HƏYAT BİLGİSİ 1

Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün
Həyat bilgisi fənni üzrə dərslik

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **trm@arti.edu.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

# MÜNDƏRİCAT

## 1 MƏN KİMƏM 7




1. Məktəbim ....... 8
2. Ailəm ....... 10
3. Ölkəm ....... 12
4. Mən azərbaycanlıyam ....... 14
5. Mən harada yaşayıram ....... 16
6. Ünsiyyət ....... 18
7. İntizam ....... 20
Ümumiləşdirici tapşırıqlar ....... 22


## 2 SAĞLAMLIQ 23




8. Bədən hissələri ....... 24
9. Oxşarlıq və fərqlilik ....... 26
10. Bədənimizi necə təmiz saxlayaq ....... 28
11. Sağlam qidalanma ....... 31
Ümumiləşdirici tapşırıqlar ....... 34


## 3 İNSANLAR VƏ ƏŞYALAR 35




12. Dillər ....... 36
13. Dinlər ....... 38
14. Mən və yoldaşlarım ....... 40
15. Evdəki əşyalarımız ....... 43
16. Əşyalar nədən hazırlanır ....... 45
17. Materialların xassələri ....... 47
18. Əşyaların hərəkəti ....... 50
19. Evimizdəki avadanlıqlar ....... 52
Ümumiləşdirici tapşırıqlar ....... 54


LAYİHƏ

## 4 ƏTRAF MÜHİT 55




20. Ətrafı necə öyrənirik ........ 56
21. Səs haradan gəlir ........ 59
22. Bu gün hava necədir ........ 61
23. Fəsillər bizə necə təsir edir ........ 63
24. Canlı və cansız ........ 66
25. Yaşamaq üçün nə lazımdır ........ 68
Ümumiləşdirici tapşırıqlar ........ 70


## 5 EHTİYATLI DAVRANAQ 71




26. Nəqliyyat vasitələri ........ 72
27. Diqqətli olaq ........ 74
28. Seldən necə qorunmaq olar ........ 76
29. Təcili zəng ........ 78
**Ümumiləşdirici tapşırıqlar ........ 80**


## Dərslikdə istifadə olunan personajlar


Sənan


Sevil


Azər


Səbinə


Elxan


Günay


Kamran


Leyla

LAYİHƏ

# KİTABLA TANIŞ OLAQ

**Bölməyə dair** situatsiya təqdim olunur və verilən suallarla şagirdlərdə bölmə haqqında təsəvvür yaradılır.

Şagirdləri müzakirəyə cəlb edərək onlarda **mövzuya** maraq yaradılır.

**Fəaliyyətlər** şagirdlərin praktik bacarıqlarını inkişaf etdirir.







Təlim nəticələrində nəzərdə tutulan **anlayışlar** təqdim edilir.

**Müzakirə sualları** və **tapşırıqları** şagirdlərdə müstəqil düşünmə bacarığını inkişaf etdirir və bilikləri möhkəmləndirir.





Sualların köməyi ilə şagirdlərin **mövzuya dair bilikləri** yoxlanılır.

Bölmə üzrə mənimsənilən bilik və bacarıqları təkrarla möhkəmləndirilir.





Qazanılmış bilik və bacarıqlar böyüklərin köməyi ilə oyun, müzakirə və müxtəlif fəaliyyətlərlə dərinləşdirilir.

LAYİHƏ

# 1 MƏN KİMƏM




**HAZIRSINIZMI?**

- Uşaqlar məktəbə nə üçün gedirlər?
- Uşaqlar bir-biri ilə necə tanış ola bilərlər?

LAYİHƏ

# 1 MƏKTƏBİM

**Açar sözlər**
- məktəb
- sinif
- tanışlıq

Mənim adım Kamrandır. Mən şəkil çəkə bilirəm.

Mənim adım Sevildir. Mən hərfləri tanıyıram.





- Uşaqlar özlərini necə tanıdırlar?
- Siz özünüzü necə tanıdardınız?

## FƏALİYYƏT  TANIŞLIQ

Parta yoldaşınızla tanış olun. Ondan hansı oyuncağı xoşladığını soruşun və həmin oyuncağın şəklini çəkin.



## ÖYRƏNMƏ

Məktəb yaşına çatmış hər bir uşaq məktəbə qəbul olunur. Siz artıq məktəblisiniz. Məktəbdə uşaqlar yeni biliklər öyrənir, təzə dostlarla tanış olurlar.



**Müzakirə**
- Uşaqlar nə üçün təhsil alırlar?
- Məktəbin bağçadan fərqi nədir?

LAYİHƏ

## TAPŞIRIQ

1. Uşaqlar məktəbdə nə edirlər? Şəkillər üzrə danışın.









2. Cümlələri uyğun şəkillərlə birləşdirin.

| | | |
|---|---|---|
| Məktəb əşyalarımı çantama toplamışam. Mən məktəbə hazıram. | Müəllimimizlə tanış olduq. O, çox mehribandır. | Sinif otağımız çox xoşuma gəldi. |







**Özünüzü yoxlayın.**
- Məktəbinizdə nə xoşunuza gəldi?
- Kimlərlə tanış oldunuz?
- Onlar haqqında nələri öyrəndiniz?

LAYİHƏ

# 2 AİLƏM

**Açar sözlər**
- ailə üzvü
- valideyn
- qayğı



- Şəkildə kimlər təsvir olunub?
- Onlar birlikdə necə adlanır?

**FƏALİYYƏT** **AİLƏ AĞACI**

Ailənizi təsvir edin.
Bu, ailə ağacıdır. Ağacın yarpaqlarının üstünə ailə üzvlərinin adlarını yazın.



LAYİHƏ

## ÖYRƏNMƏ

Ailə doğma və yaxın insanların birliyidir. Valideynlər və uşaqlar ailə üzvləridir. Bəzi ailələrdə nənə-baba da övladları və nəvələri ilə birlikdə yaşayır.
Ailədə hamı bir-birinə sevgi və qayğı ilə yanaşır.



### Müzakirə

- Ailə üzvlərinizlə necə vaxt keçirirsiniz?

## TAPŞIRIQ

Ailədə böyüklər uşaqlara hansı işlərdə kömək edirlər?
Şəkillər üzrə danışın.









### Özünüzü yoxlayın

- Ailə üzvləri kimlərdir?
- Ailə üzvləri bir-birinə necə münasibət göstərir?

## DƏRSDƏN SONRA

*Valideynlərinizdən soruşun:*
– Balaca olanda onlar hansı oyunları oynayırdılar?

LAYİHƏ

# 3 ÖLKƏM

**Açar sözlər**
- bayraq
- gerb
- himn




- Ölkəmiz necə adlanır?
- Ölkəmizin paytaxtı hansı şəhərdir?

## FƏALİYYƏT — DÖVLƏT RƏMZLƏRİ

1. Rəqəmləri yazıb bayrağımıza aid cümlələri tamamlayın.
Bayrağımızın ...... rəngi var. Onun üzərindəki ulduz ...... guşəlidir.
2. Ölkəmizin dövlət gerbinə aid hissələri seçib uyğun dairələri rəngləyin.





LAYİHƏ

## ÖYRƏNMƏ

Hər ölkənin dövlət bayrağı, gerbi və himni var. Bunlar dövlət rəmzləridir. Ölkələr öz dövlət rəmzləri ilə tanınır.
Bizim ölkəmiz Azərbaycandır. Azərbaycanın üçrəngli bayrağı, gerbi və himni var. Ölkəmizin paytaxtı Bakı şəhəridir. Dövlət dilimiz Azərbaycan dili, pul vahidimiz Azərbaycan manatıdır.




## Müzakirə

• Qalibə qızıl medal veriləndə nə üçün ölkəsinin himni səslənir?

## TAPŞIRIQ

1. Hansı şəkildə himn oxuyan uşaqlar təsvir olunub?







2. Azərbaycana aid pul nişanı hansıdır?










## Özünüzü yoxlayın

• Ölkələr nə ilə tanınır?
• Dövlət rəmzləri hansılardır?
• Ölkəmizin pul vahidi necə adlanır?

LAYİHƏ

4

# MƏN AZƏRBAYCANLIYAM

**Açar sözlər**
- Zəfər Günü
- Xarıbülbül




- 8 Noyabrda biz hansı bayramı qeyd edirik?
- Bu bayram necə yaranıb?

**FƏALİYYƏT** XARIBÜLBÜL

Şəklin hissələrini rəqəmlərə uyğun rəngləyin.

1 2 3 4 5






LAYİHƏ

## ÖYRƏNMƏ

Biz Zəfər Günündə Azərbaycanın düşmən üzərində qələbəsini bayram edirik. Zəfər Günü bütün azərbaycanlıların qürur günüdür! Xarıbülbül çiçəyi Zəfərimizin, Qarabağımızın, Şuşamızın və şəhid olan əsgərlərimizin xatirəsinin simvoludur.




### Müzakirə

• Zəfər Gününü nə üçün təntənə ilə bayram edirik?
• Biz Zəfər Günündə hansı hissləri keçiririk?

## TAPŞIRIQ

Zəfər Gününə aid olan açıqçanı işarələyin (✓).







### Özünüzü yoxlayın

• Zəfər Gününü nə üçün qürur günümüz hesab edirik?
• Zəfərimizin simvolu olan çiçəyin adı nədir?

## DƏRSDƏN SONRA

– Valideynlərinizdən xarıbülbül haqqında danışmağı xahiş edin.

LAYİHƏ

# 5 MƏN HARADA YAŞAYIRAM

**Açar sözlər**
- yol
- işıqfor
- piyada keçidi



Evimizin yanında oyun parkı və market var.

Məktəbin və parkın yolunda piyada keçidi var.



- Evinizin yaxınlığında nələr var?
- Məktəbə gələrkən nələrlə qarşılaşırsınız?

## FƏALİYYƏT MƏKTƏB YOLU

Öz məktəb yolunuzu təsvir edin.
Evdən məktəbə gedəndə diqqətinizi nələr çəkir? Şəklin kənarında yazın.




LAYİHƏ

## ÖYRƏNMƏ

Siz təsadüfən valideynlərinizdən ayrı düşə bilərsiniz. Bu zaman evinizin ətrafında nələr olduğunu yadınıza salın. Beləliklə, evinizin yerini rahat tapa bilərsiniz.

Hər hansı bir yerə gedərkən piyada keçidlərindən istifadə etmək vacibdir. Piyada keçidləri yol üzərində çəkilən ağ zolaqlardan ibarətdir. İşıqfor olan yollarda onun işıqlarına diqqət etməlisiniz.



*"Piyada keçidi" nişanı.*



***Qırmızı işıq yananda yolu keçmək olmaz.***
***Sarı işıqda yolu keçməyə hazırlaşın.***
***Yaşıl işıq yananda yolu keçmək olar.***

Bunları bilmək sizin təhlükəsizliyiniz üçün vacibdir.



*Piyadalar üçün işıqfor.*

### Müzakirə

- Evinizin ətrafında nələr olduğunu bilmək nə üçün lazımdır?
- İşıqfordan və piyada keçidindən istifadə etmək nə üçün vacibdir?

## TAPŞIRIQ

Yolu kimlər təhlükəsiz keçirlər? İşarələyin (✓).









### Özünüzü yoxlayın

- Evinizin yaxınlığında diqqətinizi ən çox nələr çəkir?
- İşıqforun rənglərinin mənası nədir?
- Piyada keçidi nişanında nə təsvir olunub?

LAYİHƏ

# 6 ÜNSİYYƏT

**Açar sözlər**

- nəzakət qaydaları
- hörmət
- diqqət



- Uşaqlar nə edirlər?
- Bu gün məktəbdə kiminlə salamlaşdınız?

## FƏALİYYƏT SEHRLİ SÖZLƏR

Sözləri uyğun boşluqlara yazın.

**Hələlik!** **Salam!** **Təşəkkür edirəm!**



LAYİHƏ

## ÖYRƏNMƏ

İnsanlar görüşəndə salamlaşırlar. Nə isə istəyəndə xahiş edirlər. Ayrılanda sağollaşırlar. Bunlar nəzakət qaydalarıdır. Ünsiyyət zamanı bu qaydalara əməl etməklə bir-birimizə diqqət və hörmət göstərmiş oluruq.




### Müzakirə

- Nəzakət qaydaları nə üçün lazımdır?
- Nə zaman “Buyurun“ sözündən istifadə edirsiniz?
- Kimlərə “Siz” deyə müraciət edirsiniz?

## TAPŞIRIQ

Şəkillərdə işarə edin:

1. Nəzakət qaydaları pozulur
2. Nəzakət qaydalarına əməl olunur



### Özünüzü yoxlayın

- Hansı nəzakət qaydalarına əməl edirsiniz?
- Ünsiyyət zamanı hansı sözlərdən istifadə edirsiniz?

LAYİHƏ

# 7 İNTİZAM

**Açar sözlər**
- qayda
- səliqə



- Şagirdlər nə edirlər?
- Döşəmədə nə görürsünüz?

## FƏALİYYƏT — TEXNOLOGİYA DƏRSİNDƏ

Gördükləri işə uyğun olaraq uşaqların adlarını çərçivələrə yazın.









LAYİHƏ

## ÖYRƏNMƏ



Bizim sinfimiz həmişə səliqəlidir, çünki:

- sinif otağının döşəməsinə zibil atmırıq;
- bitkilərin yarpaqlarını qoparmırıq;
- partaların üstünü cızmırıq;
- divarları yazmırıq.

Bunlar sinfimizin intizam qaydalarıdır.

Biz yalnız sinifdə deyil, evdə, küçədə, nəqliyyatda və oyun meydançasında da intizam qaydalarına əməl edirik. İntizam qaydalarına əməl edənlər intizamlı insanlardır.

### Müzakirə

- Şagirdlər sinifdə hansı qaydalara əməl etməlidirlər?
- Sizcə, oyun meydançasında hansı intizam qaydalarına əməl etməliyik?

## TAPŞIRIQ

Hansı şəkillərdə uşaqlar intizam qaydalarına əməl etmirlər?






### Özünüzü yoxlayın

- Şagirdlər sinifdə səliqəni qorumaq üçün nə etməlidirlər?
- Başqa harada intizam qaydalarına əməl edilməlidir?
- İntizam qaydalarına əməl etmək nə üçün vacibdir?

## DƏRSDƏN SONRA

– Parkda insanların hərəkətlərinə diqqət edin. Onlar qaydalara necə əməl edirlər?

LAYİHƏ

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Sərgidə Azərbaycana aid nümunəni necə tapmaq olar?





2. Zəfər Gününün simvolu olan çiçək hansıdır?





3. Siz işıqforun hansı rəngi yananda yolu keçməlisiniz?





4. Hansı şəkildə nəzakət qaydalarına əməl olunur?





LAYİHƏ

# 2 SAĞLAMLIQ



## HAZIRSINIZMI?

- Bədən təmizliyi niyə vacibdir?
- Düzgün qidalanmasaq, nə baş verər?
- Gün ərzində hansı işləri görürük?

LAYİHƏ

# 8 BƏDƏN HİSSƏLƏRİ

**Açar sözlər**
- bədən üzvləri
- dirsək
- diz
- hərəkət




- Qaçarkən bədəninizin hansı hissələrindən istifadə edirsiniz?
- Şəkildə adını bilmədiyiniz bədən hissəsi varmı?

## FƏALİYYƏT BƏDƏN HİSSƏLƏRİ

Bədən hissələrinin sayını boşluqlara yazın.

Mənim ____ əlim var 

Mənim ____ gözüm var 

 Mənim ____ qulağım var

 Mənim ____ dilim var

Mənim ____ burnum var 

Mənim ____ ayağım var 

Mənim ____ qolum var 

LAYİHƏ

## ÖYRƏNMƏ

Bədənimiz müxtəlif hissələrdən və ya üzvlərdən ibarətdir. Hər bir bədən üzvünün özünə aid işi var. Onların köməyi ilə biz yeriyə və qaça bilirik, tullana və üzə bilirik, şəkil çəkə və danışa bilirik. Şəkil çəkərkən dirsəyimizi, qolumuzu hərəkət etdirməyə kömək edir. Yeriyərkən ayaqlarımızı hərəkət etdirmək üçün dizlərimizdən istifadə edirik.







### Müzakirə
• Yeriyərkən və qaçarkən dizlərimiz bizə necə kömək edir?

## TAPŞIRIQ

1. Bədənin hər bir hissəsini adı ilə uyğunlaşdırın.

*qol* *dirsək* *ayaq* *diz* *pəncə*







2. Şəkil çəkərkən bu bədən hissələrinin hansından istifadə edirsiniz?

### Özünüzü yoxlayın
• Yazı yazarkən hansı bədən hissələrindən istifadə edirsiniz?
• Hansı bədən hissələrini tanıyırsınız?

LAYİHƏ

# 9 OXŞARLIQ VƏ FƏRQLİLİK

**Açar sözlər**
- oxşarlıq
- fərqlilik



- Şəkildəki uşaqlar bir-birindən nə ilə fərqlənirlər?
- Siz bir-birinizdən necə fərqlənirsiniz?

## FƏALİYYƏT FƏRQLƏNMƏK

Rəqəmlərə uyğun rənglərlə boya.

1 – sarı
3 – qara
5 – açıq-çəhrayı
7 – ağ
2 – qəhvəyi
4 – narıncı
6 – tünd-qəhvəyi




Təsvirdəki uşaqların oxşar və fərqli əlamətlərini sadalayın.

LAYİHƏ

## ÖYRƏNMƏ



Hamımız insanıq. Bədənimizin hissələri eynidir. İki gözümüz, iki qulağımız, bir burnumuz, bir ağzımız var. Lakin saçımızın, gözümüzün və dərimizin rəngi, qulağımızın və burnumuzun forması fərqlidir. Bu əlamətlər bizi bir-birimizdən fərqləndirir.

### Müzakirə

- Parta yoldaşınızla oxşar və fərqli əlamətləriniz hansılardır?
- Sinifdəki şagirdlərin üzü bir-birindən fərqlənməsəydi, nə baş verərdi?

## TAPŞIRIQ

Şəklə diqqətlə baxın. Bu insanlarda oxşarlıq və fərqlilik nədədir?



### Özünüzü yoxlayın

Ailə üzvləriniz arasında hansı üç oxşar və üç fərqli əlaməti qeyd edə bilərsiniz?

LAYİHƏ

# 10 BƏDƏNİMİZİ NECƏ TƏMİZ SAXLAYAQ

**Açar sözlər**
- bədən təmizliyi
- dırnaq tutmaq
- çimmək



- Dişlərinizi təmiz saxlamaq üçün nə edirsiniz?
- Dişlərin təmizliyi niyə vacibdir?

**FƏALİYYƏT** **TƏMİZLİK**

Bədəninizi təmiz saxlamaq üçün istifadə etdiyiniz vasitələrin şəklini işarələyin (✓).



İşarələdiyiniz vasitələrdən hansı məqsədlər üçün istifadə edirsiniz?

LAYİHƏ

## ÖYRƏNMƏ

Təmiz və səliqəli  olmaq üçün saçlarımızı darayır, dırnaqlarımızı vaxtlı-vaxtında tutur və uzanan saçlarımızı kəsdiririk.







Əl-üzümüzü yumaq, dişlərimizi fırçalamaq və çimmək sağlamlığımız üçün çox vacibdir.




### Müzakirə

- Yeməkdən əvvəl əllərinizi yumağın faydası nədir?
- Əl və ayaq dırnaqlarını kəsmək niyə vacibdir?

LAYİHƏ

## TAPŞIRIQ

1. Uyğun şəkilləri xətlərlə birləşdirin.



2. Uyğun sözləri boşluqlara yazın.

   

*dırnaqtutan* *sabun* *diş fırçası* *saç darağı*

Dırnaqlarımı...................................ilə kəsirəm.

Dişlərimi .......................................ilə fırçalayıram.

Saçlarımı.......................................ilə darayıram.

Əllərimi..........................................ilə yuyuram.

### Özünüzü yoxlayın

- Çimməsəniz, nə olardı?
- Bədən təmizliyinin faydası nədir?

LAYİHƏ

# 11 SAĞLAM QİDALANMA

**Açar sözlər**
- sağlam qidalanmaq
- qazlı içki
- sağlam qida



- Siz səhər yeməyində nə yeyirsiniz?

**FƏALİYYƏT** **SÜFRƏ**

Verilən qidaları xətlər vasitəsilə masaya birləşdirib öz yemək süfrənizi hazırlayın.




Yemək süfrənizi hazırlayarkən nələrə diqqət etdiniz?

LAYİHƏ

## ÖYRƏNMƏ

Hərəkət etmək və işlərimizi görə bilmək üçün enerjiyə ehtiyacımız var. Biz enerjini qidalardan alırıq.
Sağlam qalmaq üçün müxtəlif növ qidaları lazımi miqdarda və vaxtında yeməliyik. Eyni qidadan çox istifadə etmək sağlamlığımız üçün zərərlidir.

*Bu qidalardan oynamaq və oxumaq üçün enerji alırıq.*


*düyü*


*əriştə*


*çörək*


*kartof*

*Bu qidalar bizim böyüməyimizə kömək edir.*



*süd*


*yumurta*


*pendir*


*balıq*


*ət*

*Meyvə və tərəvəzlər bizi xəstəliklərə qarşı dözümlü edir.*


*meyvə*


*tərəvəz*

LAYİHƏ

*Bu qidalar isə sağlamlığımız üçün zərərlidir.*



*qazlı içki*



*jelibon*



*çips*



*konfet*

## Müzakirə

- İşlərinizi görə bilmək üçün lazım olan enerjini nədən alırsınız?
- Xəstəliklərə qarşı dözümlü olmaq və böyümək üçün hansı qidalarla qidalanmalıyıq?
- Çoxlu konfet yemək sağlamlığınız üçün necə zərərli ola bilər?

## TAPŞIRIQ

Sağlamlığınız üçün faydalı olan qidaları yaşıl qələmlə, zərərli qidaları isə qırmızı qələmlə dairəyə alın.


















## Özünüzü yoxlayın

- Əgər dostunuz xəstələnsə, ona hansı qidaları tövsiyə edərsiniz?
- Səhər yeməyində hansı qidalardan istifadə etmək daha faydalıdır?
- Niyə müxtəlif növ qidalardan istifadə etməliyik?

LAYİHƏ

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Bədən hissələrinə aid sözləri uyğun boşluqlara yazın.

| | | | | | |
|---|---|---|---|---|---|
| *saç* | *qulaq* | *burun* | *göz* | *barmaq* | *ayaq* |
| *ağız* | *çiyin* | *qol* | *əl* | *diz* | *pəncə* |



2. İstifadə etdiyiniz faydalı qidaları xətlərlə səbətə birləşdirin.



LAYİHƏ

# 3 İNSANLAR VƏ ƏŞYALAR



## HAZIRSINIZMI?

- Siz hansı oyunları oynamağı sevirsiniz?
- Komandanızın uğur qazanması üçün nə edərdiniz?

LAYİHƏ

# 12 DİLLƏR

**Açar sözlər**
- dil
- ünsiyyət vasitəsi




- Uşaqların lövhədə yazdıqları sözləri ucadan oxuyun. Sizcə, bu sözlərin mənası nədir?
- Bu sözlər nə üçün fərqli yazılır və fərqli səslənir?

## FƏALİYYƏT DİLLƏR

Rəqəmlərin və əşyaların adlarını öyrəndiyiniz xarici dildə söyləyin.



4



7

8



9

Xarici dildə başqa hansı əşya adlarını bilirsiniz?

LAYİHƏ

## ÖYRƏNMƏ

Dil ünsiyyət vasitəsidir. Dil vasitəsilə insanlar fikirlərini bölüşürlər. Dillər müxtəlifdir. Ölkəmizdə Azərbaycan dili ilə yanaşı, fərqli dillərdə danışan insanlar da var. Onlar birlikdə mehriban yaşayır, bir-birinin dilinə hörmətlə yanaşırlar.

### Müzakirə

- Dilin bizim üçün əhəmiyyəti nədir?
- Fərqli dildə danışan insanla necə ünsiyyət qurarsınız?

## TAPŞIRIQ




### Özünüzü yoxlayın

- Dil nə üçün ünsiyyət vasitəsi hesab olunur?
- Fərqli dildə danışan insanlar bir-birinin dilinə nə üçün hörmətlə yanaşmalıdırlar?

## DƏRSDƏN SONRA

*Validenlərinizdən soruşun:*

– Dil açanda ilk sözləriniz nə olub?

LAYİHƏ

# 13 DİNLƏR

**Açar sözlər**
- islam
- yəhudilik
- xristianlıq



*Bizim dinimiz islamdır.*



*Bizim dinimiz xristianlıqdır.*



*Bizim dinimiz yəhudilikdir.*

- Şəkildəki ailələri nə fərqləndirir?

**FƏALİYYƏT** **DİNİ SİMVOLLAR**

Simvolların hansı dinlərə aid olduğunu yazın.



______________



______________



______________

LAYİHƏ

## ÖYRƏNMƏ

İnsanlar müxtəlif dinlərə inanırlar. Dinlər insanları xeyirxah olmağa səsləyir. Azərbaycanda islam, xristian, yəhudilik və digər dinlərə inanan insanlar yaşayırlar. Fərqli dinlərə inanan insanlar bir məktəbdə təhsil alır, birlikdə işləyirlər. Onlar mehriban yaşayır və bir-birinin dininə hörmətlə yanaşırlar.

### Müzakirə

- Dinlər insanları nəyə səsləyir?

## TAPŞIRIQ

Uyğunluğu tapıb xətlərlə birləşdirin.







*yəhudilik* | *xristianlıq* | *islam*

### Özünüzü yoxlayın

- Azərbaycanda hansı dinlər var?
- İnsanlar bir-birinin dininə necə yanaşmalıdırlar?

LAYİHƏ

# 14 MƏN VƏ YOLDAŞLARIM

**Açar sözlər**
- komanda üzvü
- fərd
- komanda
- bölüşmək



- Gizlənpaç oyununu təklikdə oynamaq olarmı?
- Siz birlikdə hansı oyunları oynayırsınız?

## FƏALİYYƏT — KOMANDALAR YARIŞIR

Müəllim masaya bir üzündə şəkil olan iki kartı üzüaşağı qoyur. Kartlarda nəyin təsvir olunduğunu yalnız müəllim bilir.

1. İki komanda yaradılır və onların liderləri seçilir.
2. Hər iki komandanın üzvləri ayrı-ayrı iki dairədə düzülür.
3. Liderlər komandadan aralanıb masaya yaxınlaşır və hərə bir kartı götürüb şəklə baxır. Sonra kartı üzüaşağı yerinə qoyurlar.
4. Liderlər öz komandalarına yaxınlaşıb kartda gördüyü şəkli yanındakı yoldaşının qulağına pıçıldayır. Məlumatı alan şagird onu digər yoldaşının qulağına pıçıldayır. Məlumat bu yolla sonuncu komanda üzvünə qədər ötürülür.
5. Sonuncu komanda üzvü lövhədə şəkli çəkir. İşi birinci tamamlayan və kartdakı şəklə uyğun şəkil çəkən komanda qalib olur.

LAYİHƏ

## ÖYRƏNMƏ

Hər kəsin fərqli bacarıqları var. Kimsə daha yaxşı şəkil çəkir, futbol oynayır, şeir deyir, mahnı oxuyur. Elə işlər var ki, onları tək görmək çətindir. Elə oyunlar da var ki, onları təklikdə oynamaq olmaz. Belə halda bir neçə fərd birləşərək komanda yaradır və bu komandanın üzvü olur.




Komandada işləyərkən insanlar bir-birindən məlumat alır və bölüşmək bacarıqları qazanırlar. Beləliklə, iş uğurla yerinə yetirilir.

### Müzakirə

- Komanda üzvləri bir-birinə necə kömək edirlər?
- Komanda üzvləri bir-birinə nə üçün hörmətlə yanaşmalıdırlar?

LAYİHƏ

## TAPŞIRIQ

1. Komanda işi təsvir olunan şəkillərin altındakı dairələri yaşıl, digərlərini isə qırmızı rəngləyin.









2. Komanda işi təsvir olunan şəkilləri hansı əlamətlərə görə seçdiniz?
3. Qırmızı rənglə işarə etdiyiniz şəkildəki fəaliyyəti niyə komanda işi hesab etmirsiniz?

### Özünüzü yoxlayın

- Komandada işləməyin fərd üçün faydası nədir?
- Komandanın işi nə zaman uğurlu alınır?

LAYİHƏ

# 15 EVDƏKİ ƏŞYALARIMIZ

**Açar sözlər**
- əşyaların yeri
- səliqəli otaq
- validеynə kömək



- Uşaqlar nə edirlər?
- Siz öz əşyalarınızı necə saxlayırsınız?

**FƏALİYYƏT** SƏLİQƏ YARADAQ

Otağı səliqəyə salmaq üçün əşyaları xətlərlə öz yerinə birləşdirin.



LAYİHƏ

## ÖYRƏNMƏ

Otağın səliqəli olması üçün, ilk növbədə, səhər oyananda yatağı yığmaq lazımdır. Oyuncaqların, paltarların, kitabların hər birinin öz yeri var. İstifadə etdikdən sonra onları öz yerinə qoysanız, otaq səliqəli olar. Əşyalarınızı özünüz yığsanız, onları tapmaq daha asan olar. Səhər məktəbə hazırlaşanda əşyalarınızı tez taparsınız və dərsə gecikməzsiniz.

Siz bu işləri yerinə yetirməklə həm də evdə səliqə yaradılmasında iştirak etmiş olarsınız. Valideynləriniz sevinər və köməyinizə görə təşəkkür edərlər.

### Müzakirə

- Nə üçün əşyalarınızı səliqə ilə yığmalısınız?
- Evdə valideynlərinizə hansı işlərdə kömək edirsiniz?

## TAPŞIRIQ

Şəkillər üzrə danışın.
Uşaqlar valideynlərinə hansı işlərdə kömək edirlər?





### Özünüzü yoxlayın

- Əşyalarınızı səliqə ilə yığmaq hansı işinizi asanlaşdırır?
- Valideynlərə kömək etməyiniz onlara necə təsir edir?

## DƏRSDƏN SONRA

*Valideynlərinizdən soruşun:*
– Siz onlara hansı işlərdə kömək edə bilərsiniz?

LAYİHƏ

16

# ƏŞYALAR NƏDƏN HAZIRLANIR

**Açar sözlər**
- şüşə
- plastik
- metal
- material



- Masanın üzərindəki əşyalar nədən hazırlanıb?
- Taxtadan hazırlanmış başqa hansı əşyaları tanıyırsınız?

**FƏALİYYƏT** ƏŞYALAR

Sinif otağınızda olan taxta, şüşə, plastik və kağızdan hazırlanmış iki əşyanın adını cədvəlin uyğun xanasına yazın.

| | Taxta | Şüşə | Plastik | Kağız |
|---|---|---|---|---|
| Əşya | | | | |
| | | | | |

Sinifdə başqa nədən hazırlanmış əşyalar var?

LAYİHƏ

## ÖYRƏNMƏ

Əşyalar müxtəlif materiallardan hazırlanır. Bu materiallara kağızı, metalı, plastiki, şüşəni, taxtanı və rezini misal göstərə bilərik. Bəzi əşyalar bir, bəziləri isə bir neçə materialdan hazırlanır.

*Kağız əşyalar*



*Metal əşyalar*



*Plastik əşyalar*



*Rezin əşyalar*



*Taxta əşyalar*



*Şüşə əşyalar*



### Müzakirə

- Yemək yeyərkən hansı əşyalardan istifadə edirsiniz?
  Onlar hansı materialdan hazırlanıb?
- Bir neçə materialdan hazırlanmış hansı əşyaları tanıyırsınız?

## TAPŞIRIQ

1. Bir manatlıq və əlli qəpiklik pullar hansı materiallardan hazırlanıb?
2. "Metal", "plastik" və "şüşə" sözlərini uyğun boşluqlara yazın.



### Özünüzü yoxlayın

- Hansı materialları tanıyırsınız?
- Bu materiallardan hansı əşyalar hazırlanır?

LAYİHƏ

# 17 MATERİALLARIN XASSƏLƏRİ

**Açar sözlər**
- bərk
- yumşaq
- sukeçirən
- parlaq




- Hansı yataq bərk, hansı isə yumşaqdır?
- Materialları başqa necə fərqləndirmək olar?

## FƏALİYYƏT — SUKEÇİRƏN VƏ SUKEÇİRMƏYƏN MATERİALLAR

1. İki kağız topasından birini sellofan paketə, digərini isə parça dəsmala bükün.
2. Büküdüyünüz sellofan və parça dəsmalı içərisində su olan qaba salın.

Bir müddət gözləyin və çıxarın.

*Lazım olan əşyalar*


*Sellofan paket*


*Parça dəsmal*


*Kağız topası*


*Qab*







- Sellofan paketə və parçaya bükülmüş kağızı yoxladıqda nə müşahidə etdiniz?
- Hansı material sukeçirən, hansı material isə sukeçirməyəndir?

LAYİHƏ

## ÖYRƏNMƏ

Materiallar xassələrinə görə bir-birindən fərqlənir.

*Bərk və ya yumşaq materiallar*




*Sukeçirən və ya sukeçirməyən materiallar*




*Ağır və yüngül materiallar*




*Parlaq və ya parlaq olmayan materiallar*




Materialların eyni zamanda bir neçə xassəsi ola bilər. Məsələn, metal materiallar bərk, ağır, parlaq və sukeçirməyəndir.

LAYİHƏ

## Müzakirə

- Hansı əşyaları sukeçirməyən materiallardan hazırlayırlar?
- Nə üçün çəngəl və qaşıq kağızdan hazırlanmır?

## TAPŞIRIQ

1. Verilmiş boşluqlara materialların xassələrini yazın.

| | | |
|---|---|---|
| *sukeçirən* | *bərk* | *parlaq olmayan* |
| *sukeçirməyən* | *yumşaq* | *parlaq* |

 ____________ materialdan hazırlanıb.

 ____________ materialdan hazırlanıb.

 ____________ materialdan hazırlanıb.

 ____________ materialdan hazırlanıb.

 ____________ materialdan hazırlanıb.

 ____________ materialdan hazırlanıb.

2. Çərpələngin asanlıqla havaya qalxması üçün onu hansı xassəli materialdan hazırlamaq lazımdır?



3. Qayığın hazırlandığı materialların hansı xassələri olmalıdır?



## Özünüzü yoxlayın

- Materialların hansı xassələri var?
- Nə üçün biz materialların xassələrini bilməliyik?

LAYİHƏ

18

# ƏŞYALARIN HƏRƏKƏTİ

**Açar sözlər**
- dartmaq
- itələmək
- hərəkət





- Soyuducunun qapısını açmaq üçün nə etməlisiniz?
- Soyuducunun qapısını bağlamaq üçün nə edirsiniz?

## FƏALİYYƏT — ƏŞYAMIZIN YERİNİ DƏYİŞDİRƏK

Masanızdakı hər hansı bir əşyanı özünüzə yaxınlaşdırın. Həmin əşyanı özünüzdən uzaqlaşdıraraq yerinə qaytarın.





- Əşyanızı özünüzə yaxınlaşdırmaq və özünüzdən uzaqlaşdırmaq üçün nə etdiniz?

LAYİHƏ

## ÖYRƏNMƏ

Biz tez-tez əşyalarımızın yerini dəyişdiririk. Əşyaları dartaraq və ya itələyərək onların yerini dəyişdirmək olar. Əşyaları dartarkən və ya itələyərkən onlar hərəkət edir.



### Müzakirə

- Masaya yaxın oturmaq üçün stulunuzun yerini necə dəyişdirirsiniz?
- Əşyalarla insanların hərəkəti arasında hansı fərq var?

## TAPŞIRIQ

1. Qutunu hərəkət etdirmək üçün hər uşağın nə etdiyini uyğun çərçivələrə yazın.
2. Qutunun hərəkət etdiyi tərəfi göstərən oxu rəngləyin.
3. Sizcə, qutunu birlikdə hərəkət etdirmək daha asandırmı?



### Özünüzü yoxlayın

- Əşyalarımızın yerini dəyişdirmək üçün nə etməliyik?
- Əşyanız hərəkət etməsə, yerini dəyişə bilərmi?

LAYİHƏ

# 19 EVİMİZDƏKİ AVADANLIQLAR

**Açar sözlər**
- məişət texnikası
- kəsici alətlər
- deşici alətlər



- Şəkildəki uşaqlar nə etmək istəyirlər?
- Sizcə, uşaqlar bu işləri özləri etməlidirlərmi?

## FƏALİYYƏT — CİHAZ VƏ ALƏTLƏR

Məişət avadanlığının adını və nə üçün istifadə edildiyini yazın.









LAYİHƏ

## ÖYRƏNMƏ



Məişət texnikası insanların hər gün istifadə etdikləri ev avadanlığıdır. Qaz plitəsi, ətçəkən maşın, saçqurudan, ütü və digər əşyalar ən çox istifadə olunan avadanlıqlardır.

Məişət texnikasından istifadə etməyin qaydaları var. Bu qaydalara əməl etmədikdə qəzalar, yanğın və partlayışlar baş verə bilər. Təhlükəsizlik üçün uşaqların məişət texnikasından istifadə etməsi məsləhət görülmür.

Bıçaq və qayçı məişətdə istifadə olunan kəsici-deşici alətlərdir. Onlardan istifadə edəndə böyüklərdən yardım istəyin.

### Müzakirə

- Məişət texnikası insanlara nə üçün lazımdır?
- Evdə kəsici və deşici alətlərdən hansı işlərdə istifadə olunur?
- Məişət texnikası ilə ehtiyatsız davranmaq hansı zədələnmələrə səbəb ola bilər?

## TAPŞIRIQ

Kəsici və deşici alətlərin altındakı dairələri qırmızı, elektrik cihazlarının altındakı dairələri isə göy rəngləyin.



### Özünüzü yoxlayın

- Məişət texnikasından necə istifadə edilməlidir?

LAYİHƏ

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Cümlələri diqqətlə oxuyub ***doğru*** və ***yanlış*** fikirləri qeyd edin.

| | Bəli | Xeyr |
|---|---|---|
| Biz məktəbdə xarici dil öyrənirik | | |
| Dillər bir-birindən fərqlənmir | | |
| Başqa dilin öyrənilməsi dostlar tapmaqda kömək edir | | |

2. Verilmiş tullantıları xətlər vasitəsilə uyğun zibil qutusuna birləşdirin.






3. Azər məktəbə tez-tez gecikir, çünki səhər evdən vaxtında çıxa bilmir. Şəklə baxıb Azərin gecikmə səbəbini araşdırın və aşağıda yazın.



LAYİHƏ

4

# ƏTRAF MÜHİT



## HAZIRSINIZMI?

- Ətraf aləmi öyrənmək üçün hisslərimiz bizə necə kömək edir?
- Səsin mənbəyini necə müəyyən edirik?

LAYİHƏ

# 20 ƏTRAFI NECƏ ÖYRƏNİRİK

**Açar sözlər**

- görmə
- eşitmə
- dadbilmə
- qoxubilmə
- toxunma




- Siz piknikdə nə edirsiniz?
- Ətrafınızdakı əşyalara toxunaraq nə hiss edirsiniz?
- Güllərin rəngini və qoxusunu hansı bədən üzvləri ilə müəyyən edirsiniz?

## FƏALİYYƏT GÖZBAĞLICA OYNAYAQ

1. Şagirdlərdən birinin gözləri yaylıqla bağlanır.
2. Digər uşaqlar onun ətrafında səslər çıxararaq hərəkət edirlər.
3. Gözübağlı olan oyunçu digər yoldaşlarını tutmağa çalışır.



- Gözbağlıca oynayarkən uşaqları tutmaq üçün nə edərdiniz?
- Bu zaman tutduğunuz uşağın kim olduğunu necə bilərsiniz?

LAYİHƏ

## ÖYRƏNMƏ

**Qoxubilmə**



Burnumuzla qoxulayırıq.

**Dadbilmə**



Dilimizlə dadırıq.

**Görmə**



Gözlərimizlə görürük.



**Toxunma**



Əllərimizlə toxunuruq.

**Eşitmə**



Qulaqlarımızla eşidirik.

Şəkil çəkərkən müxtəlif rənglərdən istifadə edirik. Bu rəngləri gözümüzlə görərək fərqləndiririk. Quşların səsini, uşaqların səsini və digər səsləri qulağımızla eşidirik.

Qoxusu və dadı xoşumuza gələn qidaları sevirik. Bəzi yeməklərin dadı duzlu, bəzilərininki şirin olur. Müxtəlif dadları dilimizlə, qoxuları isə burnumuzla hiss edirik. Əllərimizlə əşyalara toxunaraq dərimiz vasitəsilə onların isti və ya soyuq, quru və ya yaş, sərt və ya yumşaq olduğunu hiss edirik. Ətraf aləm haqqında məlumat almaq üçün beş hissimizdən istifadə edirik.

### Müzakirə

- Ətrafınıza baxın və gördüklərinizi qeyd edin. Bu məlumatları hansı hissləriniz vasitəsilə aldınız?
- Toxunma hissiniz olmasaydı, hansı məlumatları almaq çətin olardı?

LAYİHƏ

## TAPŞIRIQ

1. Uyğunlaşdırın:

*toxunmaq* | *dadmaq* | *görmək* | *eşitmək* | *qoxulamaq*



2. Uyğun boşluqlara ***doğru*** və ya ***yanlış*** sözlərini yazın

a. Almanın dadını dilimizlə hiss edirik.

b. Çayın isti olmasını toxunaraq hiss edirik.

c. Güllərin qoxusunu dadaraq hiss edirik.

3. Şəkildə neçə fərqli yarpaq təsvir olunub? Bunu hansı hissiniz vasitəsilə müəyyən etdiniz?



4. Doğru sözün altından xətt çəkin:

a. Musiqi dinləyərkən ***görmə / eşitmə*** hissimizdən istifadə edirik.

b. Müxtəlif rəngli və ölçülü əşyaları ***görmə / eşitmə*** hissimizlə fərqləndiririk.

### Özünüzü yoxlayın

- Əşyaların bərk və yumşaq, isti və soyuq olmasını necə bilirsiniz?
- Portağalın dadını, qoxusunu, formasını hansı bədən üzvləri vasitəsilə müəyyən edirsiniz?

LAYİHƏ

# 21 SƏS HARADAN GƏLİR

**Açar sözlər**

- səs mənbəyi
- uca səs
- alçaq səs



- Siz səsinizdən nə üçün istifadə edirsiniz?
- Uzaqda olan yoldaşınızın sizi eşitməsi üçün nə edirsiniz?

## FƏALİYYƏT MAHNINI EŞİDƏK

**1.** Müəllimin səsləndirdiyi mahnıya diqqətlə qulaq asın.

**2.** Mahnını eşidəndə əlinizi qaldırın.



- Nə üçün bütün şagirdlər əllərini eyni vaxtda qaldırmadı?
- Nə üçün müəllim sizə yaxınlaşdıqca mahnını daha yaxşı eşidirsiniz?

LAYİHƏ

## ÖYRƏNMƏ

Biz salamlaşarkən, mahnı oxuyarkən və kimisə çağırarkən müxtəlif səslər çıxarırıq.
Quşlar, musiqi alətləri və oyuncaqlar da səs çıxarır. Səs çıxaran hər şey səs mənbəyidir.
Yaxındakı yoldaşımızla alçaq səslə danışırıq, yoldaşımız uzaqda olarsa, səsimizi ucaldırıq. Mənbəyindən uzaqlaşdıqca səs zəifləyir.



### Müzakirə

- Təcili yardım maşınının yaxınlaşdığını və ya uzaqlaşdığını səsindən necə bilmək olar?
- Sinifdə şagirdlər eyni vaxtda uca səslə danışsalar, nə baş verər?

## TAPŞIRIQ

1. Şəkildə təsvir olunmuş səs mənbələrini işarələyin (✓).



2. Gözlərinizi yumun və diqqətlə ətrafa qulaq asın.

- Hansı səsləri eşidirsiniz?
- Bu səslərin mənbəyi nə ola bilər?



### Özünüzü yoxlayın

- Səslər haradan gəlir?
- Eyni səs mənbəyi bizə yaxın və bizdən uzaq olduqda həmin səsi necə eşidirik?

LAYİHƏ

# 22 BU GÜN HAVA NECƏDİR

**Açar sözlər**
- buludlu
- qarlı
- simvol




- İndi bayırda hava necədir?
- Siz hansı hava şəraitini xoşlayırsınız? Niyə?

## FƏALİYYƏT — KÜLƏK TORBASI

1. Qalın kağızdan boru düzəldin.
2. Rəngli kağızlardan nazik lentlər kəsin.
3. Lentlərin uclarını kağız borunun kənarlarına yapışdırın. Siz külək torbası hazırladınız.
4. Külək torbasını bayırdan asın və bir müddət müşahidə edin.



- Siz külək torbasında nə müşahidə etdiniz?
- Külək torbası vasitəsilə hansı məlumatları ala bilərik?

LAYİHƏ

## ÖYRƏNMƏ

Evdən çıxarkən hava şəraitini nəzərə alırıq. Hava bəzən isti, bəzən də soyuq olur. Bu, havanın günəşli, buludlu, yağışlı, qarlı və küləkli olmasından asılıdır. Gün ərzində informasiya vasitələrindən hava haqqında məlumatlar alırıq. Bu məlumatlar təqdim olunarkən simvollardan istifadə edilir.


*günəşli*


*küləkli*


*buludlu*


*yağışlı*


*qarlı*

### Müzakirə

- Hava şəraitini əvvəlcədən necə öyrənə bilərik?
- Hava şəraitini bilmək nə üçün vacibdir?

## TAPŞIRIQ

1. Hava şəraitini uyğun simvollarla birləşdirin.











2. Üç gün hava şəraitini müşahidə edin. Nəticəni simvollarla cədvələ qeyd edin.

| Gün: | Gün: | Gün: |
|---|---|---|
| | | |

### Özünüzü yoxlayın

- Hansı hava şəraitlərini tanıyırsınız?
- Hava şəraiti haqqında məlumatları sözsüz necə təqdim edə bilərsiniz?

LAYİHƏ

# 23 FƏSİLLƏR BİZƏ NECƏ TƏSİR EDİR

**Açar sözlər**
- fəsil
- hava şəraiti
- geyim




- İlin hansı fəslində hava soyuq olur?
- Soyuq havada necə geyinirsiniz?

## FƏALİYYƏT FƏSİLLƏR

Şəkilləri fəsillərə uyğun rəngləyin.



- Şəkildəki hər hansı iki fəsil arasındakı üç fərqi sadalayın.

LAYİHƏ

## ÖYRƏNMƏ

İlboyu hava şəraiti dəyişir. Bu dəyişikliklər fəsillər kimi tanınır. Fəsillər havanın isti, soyuq, yağışlı, qarlı, küləkli, buludlu olması ilə fərqlənir.



*Yaz fəsli:*
*Hava isinir.*
*Ağaclar çiçək açır.*



*Yay fəsli:*
*Hava isti olur.*
*Meyvə bol olur.*



*Payız fəsli:*
*Hava soyuyur.*
*Yarpaqlar saralır.*



*Qış fəsli:*
*Hava soyuq olur.*
*Qar yağır.*

Qışda qalın, yayda nazik və yüngül paltarlar geyinirik. Bu bizim sağlamlığımız üçün vacibdir.

### Müzakirə

- İndi hansı fəsildir? Fəsli hansı əlamətlərinə görə müəyyən etdiniz?
- Fəsillərə uyğun geyinməyimizin səbəbi nədir?

LAYİHƏ

## TAPŞIRIQ

1. Fəsilləri uyğun geyimlərlə birləşdirin.
2. Simvolların rəqəmlərini uyğun boşluqlara yazın.




3. Aşağıdakı cümlələrdən doğru (✓) və ya yanlış (×) olan ifadəni seçin.

| | |
|---|---|
| Sentyabr, oktyabr və noyabr payız fəslinin aylarıdır. | |
| Bütün fəsillərdə hava şəraiti eynidir. | |
| Fəsillər ilboyu ardıcıllıqla dəyişir. | |
| Qış fəslində hava istilənir və ağaclar çiçək açır. | |
| Yay aylarında hava şəraiti yaz fəslindən daha isti olur. | |

### Özünüzü yoxlayın

- İlin hansı fəsilləri var?
- Fəsilləri hansı əlamətlərinə görə fərqləndiririk?

LAYİHƏ

# 24 CANLI VƏ CANSIZ

**Açar sözlər**
- böyümək
- çoxalmaq
- qidalanmaq




- Nə üçün oyuncaqlar yemək yeyə bilmir?
- Siz böyüdükcə oyuncaqlarınız da böyüyürmü?

## FƏALİYYƏT — CANLILARIN ƏLAMƏTLƏRİ

Canlıları (✓) işarələyin.

 ○  ○  ○  ○

 ○  ○  ○  ○

- Canlıları hansı əlamətlərinə görə müəyyən etdiniz?

LAYİHƏ

## ÖYRƏNMƏ





Canlılar hərəkət edirlər



Canlılar çoxalırlar







Canlılar böyüyürlər

Canlılar hərəkət edir, çoxalır, böyüyür, nəfəs alır və qidalanırlar. Cansızlar isə qidalanmır, nəfəs almır, hərəkət etmir, böyümür və çoxalmırlar.

### Müzakirə

- Canlılar nə üçün hərəkət edirlər?
- Cansızlar öz-özünə hərəkət edə bilərmi?

## TAPŞIRIQ

Uyğun boşluqlara "doğru" və ya "yanlış" sözlərini yazın

1. Canlılar su içirlər. ________
2. Oyuncaq ayı tənəffüs edir. ________
3. Canlılar çoxalırlar. ________
4. Uşaqlar böyüdükcə dəyişirlər. ________

### Özünüzü yoxlayın

- Canlıların əlamətləri hansılardır?
- Cansızlar canlılardan nə ilə fərqlənir?

LAYİHƏ

# 25 YAŞAMAQ ÜÇÜN NƏ LAZIMDIR

**Açar sözlər**
- hava
- qida
- günəş işığı



- Göyərçinlər və ördəklər nə edir?
- Canlıların  yaşaması üçün başqa nə lazımdır?

## FƏALİYYƏT — CANLILARIN EHTİYACI

Canlıların yaşaya bilməsi üçün lazım olanları (✓) işarələyin.

 ◯  ◯  ◯

 ◯  ◯  ◯

- Bunlardan hansı həm bitkilərin, həm də insanların yaşaya bilməsi üçün vacibdir?

LAYİHƏ

## ÖYRƏNMƏ



İnsanların və heyvanların nəfəs alması üçün havaya ehtiyacı var. Su və qida da canlıların yaşaması üçün vacibdir. İnsanlar və heyvanlar yaşamaq üçün su içir və qidalanırlar.
Bitkilərin yaşamaq üçün su ilə yanaşı, günəş işığına da ehtiyacı var.

### Müzakirə

- Su olmasa, bu, bitkilərin yaşamasına necə təsir edər?
- Qidalanmaq nə üçün lazımdır?

## TAPŞIRIQ

Düzgün cavabların altından xətt çəkin:

1. İnsanların yaşamaq ücün *televizora / havaya* ehtiyacı var.

2. Bitkilərin yaşamaq üçün günəş *işığına / güldana* ehtiyacı var.

3. Quşların yaşamaq üçün *qəfəsə / suya* ehtiyacı var.

### Özünüzü yoxlayın

- Heyvanların canlı qalmaq üçün nəyə ehtiyacı var?
- Bitkilərə canlı qalmaq üçün günəş işığından başqa nə lazımdır?

LAYİHƏ

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Uyğun sözləri boşluqlara yazın:

*qoxulayırıq* *eşidirik* *görürük* *toxunuruq* *dadırıq*

 Gözlərimiz vasitəsilə ..................................................

Burnumuz vasitəsilə .................................................. 

 Əlimiz vasitəsilə ........................................................

Dilimiz vasitəsilə ....................................................... 

 Qulağımız vasitəsilə ..................................................

2. Simvollar və şəkillərdən istifadə edərək cümlələri tamamlayın.

• Hava _________  dır. Belə hava şəraiti ən çox _____  fəslində müşahidə edilir.

• Hava_________  dır. _____  fəslində hava soyumağa başlayır və yarpaqlar saralır.

• Hava _________  dır. Hava çox soyuq keçir və hər tərəf ağ rəngə boyanır. Bu, ________  fəslidir.

LAYİHƏ

# 5 EHTİYATLI DAVRANAQ



**HAZIRSINIZMI?**

- Şəkildəki uşaqların hansı davranışı təhlükəlidir?
- Parkda, həyətdə oynayarkən nələrə diqqət etmək lazımdır?

LAYİHƏ

# 26 NƏQLİYYAT VASİTƏLƏRİ

**Açar sözlər**
- nəqliyyat
- lift
- eskalator







- Siz hansı nəqliyyat vasitələrindən istifadə edirsiniz?

## FƏALİYYƏT NƏQLİYYAT VASİTƏLƏRİ

Nəqliyyat vasitələrinin adını çərçivələrə yazın. Onları hərəkət etdiyi yollara uyğun nömrələyin.





















LAYİHƏ

## ÖYRƏNMƏ

Minik avtomobili, avtobus, qatar, təyyarə, gəmi nəqliyyat vasitələridir. Nəqliyyat vasitələri sərnişin və yük daşıyır.

Eskalator və lift də nəqliyyat vasitəsidir. Bu nəqliyyat vasitələrindən yuxarı qalxmaq və aşağı enmək üçün istifadə edilir.

Liftdə atılıb-düşəndə və düymələri ilə oynayanda lift xarab ola bilər.

Eskalatorda qaçmaq və oturmaq həm sizə, həm də başqa sərnişinlərə təhlükə yarada bilər.





### Müzakirə

- Nəqliyyat vasitələri işlərimizi necə asanlaşdırır?
- Eskalatorda qaçmaq hansı təhlükələrə səbəb ola bilər?

## TAPŞIRIQ

Liftdən və eskalatordan istifadə qaydalarına əməl edən uşaqları (✓) işarələyin.







### Özünüzü yoxlayın

- Hansı nəqliyyat vasitələrini tanıyırsınız?
- Liftdə və eskalatorda hansı qaydalara əməl etmək lazımdır?

LAYİHƏ

# 27 DİQQƏTLİ OLAQ

**Açar sözlər**
- tanımadığınız insanlar
- sahibsiz əşyalar




- Sizcə, Kamran nə etməlidir?

## FƏALİYYƏT — YAD İNSANLAR VƏ SAHİBSİZ ƏŞYALAR

Şəkillər əsasında kiçik səhnəciklər qurun və sinif yoldaşlarınızla oynayın.

**Səhnəcik 1.**

1. Bir şagird yad adam rolunda digər şagirdə konfet uzadır.
2. Şagird öz seçiminə görə nə etməli olduğunu göstərir.

**Səhnəcik 2.**

1. Şagirdlərdən biri oturacağın üstündə sahibsiz bağlama görür.
2. Şagird öz seçiminə görə nə etməli olduğunu göstərir.





LAYİHƏ

## ÖYRƏNMƏ

Böyükləriniz yanınızda olmayanda tanımadığınız insanlarla ünsiyyət qurmayın. Həyətdə, küçədə, nəqliyyatda sahibsiz əşya və ya bağlama görsəniz, onlara toxunmayın. Bu davranışlar sizin təhlükəsizliyiniz üçün vacibdir. Belə hallarda dərhal valideynlərinizə və ya tanıdığınız insanlara məlumat verin. Yaxınlıqda bu şəxslərdən heç biri yoxdursa, marketdə satıcıya, küçədə polisə, parkda mühafizəçiyə yaxınlaşıb kömək istəyin. Onlar sizə kömək edəcəklər.



### Müzakirə

- Tanımadığınız insanla niyə ünsiyyət qurmaq olmaz?
- Sahibsiz əşyalara nə üçün toxunmamalısınız?

## TAPŞIRIQ

Parkda oynayarkən uşaq sahibsiz çanta gördü. O nə etməlidir? Boşluqlara "doğru" və "yanlış" sözlərini yazın.

1. Çantanı açıb içinə baxmalıdır. ______
2. Çantaya toxunmayıb valideyninə və ya polisə məlumat verməlidir. ______
3. Çantanı evlərinə aparmalıdır. ______

### Özünüzü yoxlayın

- Tanımadığınız insanlar sizə yaxınlaşanda nə etmək lazımdır?
- Sahibsiz bağlama görəndə kimə müraciət etməlisiniz?

LAYİHƏ

# 28 SELDƏN NECƏ QORUNMAQ OLAR

**Açar sözlər**
- sel
- daşqın




- Baba hansı təhlükədən danışır?
- Bu təhlükədən necə qorunmaq olar?

## FƏALİYYƏT SELLƏ MÜBARİZƏ

Plastilindən çay və evlərin qarşısına düzmək üçün qum kisələri düzəldin.



- Qum kisələrini nə üçün evlərin qarşısına düzürlər?

LAYİHƏ

## ÖYRƏNMƏ



Bəzən evlərə, heyvanlara və tarlalara ziyan vuran hadisələr baş verir. Sel belə hadisələrdən biridir. Qarların əriməsi, çoxlu yağış yağması nəticəsində çaylarda su çoxalır. Bu zaman sel və daşqın baş verir. Sel və daşqın zamanı evdəsinizsə, dərhal evin yuxarı mərtəbəsinə və ya damına qalxmaq lazımdır. Bayırdasınızsa, ən hündür bir yerə çıxaraq qoruna bilərsiniz. Sel və daşqın olan ərazilərdə oynamaq təhlükəlidir.

### Müzakirə

- Yaz fəslində selin başvermə səbəbi nədir?
- Sel və daşqın zamanı nə üçün hündür yerə çıxmaq lazımdır?

## TAPŞIRIQ

Sel və daşqın təhlükəsindən qorunmaq üçün düzgün davranışları seçib (✓) işarələyin.






### Özünüzü yoxlayın

- Sel və daşqının baş verməsini necə izah edə bilərsiniz?
- Sel və daşqın təhlükəsindən necə qorunmaq olar?

LAYİHƏ

# 29 TƏCİLİ ZƏNG

**Açar sözlər**

- yanğın
- yardım
- 1-1-2



- Ağacın yanmasına nə səbəb olub?
- Pişiyi xilas etmək üçün nə edərdiniz?

## FƏALİYYƏT ÜNVANIMI BİLİRƏM

Yaşadığınız ölkənin, şəhərin, qəsəbənin (kəndin), küçənin adını və evinizin nömrəsini yazın.




Dairələr arasındakı ox işarələrinin mənasını izah edin.

LAYİHƏ

## ÖYRƏNMƏ

Ehtiyatsızlıq üzündən qəzalar baş verir. Uşaqlar kibritlə oynayanda, evdə qaz cihazı nəzarətsiz qalanda və digər səbəblərdən yanğın və partlayış baş verə bilər. Belə hallarda nə etməli olduğumuzu bilməliyik.
Yanğın zamanı telefonda 1-1-2 rəqəmlərini yığıb zəng edin. Yerinizi bildirmək üçün küçənizin adını və evinizin nömrəsini valideynlərinizdən soruşub yadınızda saxlayın. Siz bunları bir vərəqə yazıb görünən yerdə saxlaya da bilərsiniz.




### Müzakirə

- Hansı davranışlar yanğına səbəb ola bilər?
- Yanğın zamanı 1-1-2-yə zəng vurmaqdan başqa nə edə bilərsiniz?
- Ev ünvanınızı nə üçün bilməlisiniz?

## TAPŞIRIQ

Ehtiyatsız davrandıqda yanğına səbəb ola biləcək əşyaları işarələyin (✓).

 ◯
 ◯
 ◯
 ◯
 ◯
 ◯
 ◯
 ◯

### Özünüzü yoxlayın

- Yanğın hansı səbəblərdən baş verə bilər?
- Yanğın haqqında xəbər vermək üçün hansı məlumatları bilməli və hansı nömrəyə zəng etməliyik?

LAYİHƏ

# ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Təhlükə anında zəng etməli olduğumuz telefon nömrəsini tapıb dairəyə alın.

| | | | |
|---|---|---|---|
| 8-8-8 | 6-6-6 | 7-7-7 | 2-2-2 |
| 3-3-3 | 2-2-2 | 9-9-9 | 4-4-4 |
| 0-0-0 | 5-5-5 | 1-1-2 | 9-1-9 |

2. Şəkildə gördüyünüz uşaq bu halda nə etməlidir? Cavabınızı şəklin qarşısındakı çərçivəyə yazın.



3. Sel hadisəsi təsvir olunan şəkli işarələyin (✓).







LAYİHƏ

*BURAXILIŞ MƏLUMATI*

---

*Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün*
*Həyat bilgisi fənni üzrə*
***dərslik***

**Tərtibçi heyət:**


| | |
|---|---|
| Müəlliflər | **Elşad Yunusov** |
| | **Gülər Mehdiyeva** |
| | **Elmina Kazımzadə** |
| | **Yalçın İslamzadə** |
| | **Elmar İmanov** |
| | **Famil Ələkbərov** |
| Koordinator | **Əli Ağacanlı** |
| Redaktor | **Əsgər Quliyev** |
| İxtisas redaktoru | **İsmayıl Sadıqov** |
| Bədii redaktor | **Eldəniz Xocazadə** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Eldəniz Xocazadə** |
| Rəssam | **Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |
| Məsləhətçi | **Rasim Abdurazaqov** |
| Məsləhətçi qurum | **“Alston” Nəşriyyat Evi** |



**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri
və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



ISBN 978-9952-550-11-5

Hesab-nəşriyyat həcmi: 9,6. Fiziki çap vərəqi: 10.
Səhifə sayı: 80. Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^{1}/_{8}$.
Şriftin adı və ölçüsü: Segoe UI, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tiraj: 4 200. Pulsuz. Bakı – 2022.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 13.09.2022**

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
“CN Poliqraf” MMC (Bakı ş. Şərifzadə küş., 29/31).


LAYİHƏ

Pulsuz

LAYİHƏ